**ASC «Xalq» Bankında Fiziki şəxslər tərəfindən əmanətlərin yerləşdirilməsinə dair Şərtlərə**
**Əlavə № 1**

## Bankda yerləşdirilən əmanətlərin növləri üzrə xüsusi şərtlər

### 1. MÜDDƏTLİ ƏMANƏT BANK MƏHSULU ÜZRƏ XÜSUSİ ŞƏRTLƏR

**1.1. Əmanətin müddəti/valyutası.**

| 3 ay | 6 ay | 9 ay | 12 ay | 18 ay | 24 ay |
|---|---|---|---|---|---|
| AZN | AZN/USD | AZN/USD | AZN/USD/EUR | AZN | AZN |

**1.2. Əmanət üzrə illik faiz dərəcəsi.**

| Valyuta | Faizlərin ödənilməsi dövriliyi | 3 ay | 6 ay | 9 ay | 12 ay | 18 ay | 24 ay |
|---|---|---|---|---|---|---|---|
| **AZN** | **Aylıq** | 7.00% | 8.00% | 8.50% | 9.00% | 9.00% | 9.50% |
| | **Müddətin sonunda** | 8.00% | 9.00% | 9.50% | 10.00% | 10.00% | 10.50% |
| **USD** | **Aylıq** | - | 1.00% | 1.50% | 2.00% | - | - |
| | **Müddətin sonunda** | - | 1.50% | 2.00% | 2.50% | - | - |
| **EUR** | **Aylıq** | - | - | - | 1.00% | - | - |
| | **Müddətin sonunda** | - | - | - | 1.50% | - | - |

**1.3. Əmanət məbləğinin miqdarına dair tələblər.**
- Minimal məbləğ: 100 AZN/USD/EUR
- Maksimal məbləğ: məhdudiyyətsiz

**1.4. Əmanət üzrə faizlərin ödənilməsi qaydası.** Faizlər Əmanətçinin aşağıdakı hesablarından birinə köçürülür:
**1.4.1.** Əmanətin müddəti 3 ayadək olduqda, habelə digər müddətli əmanətlər üzrə Əmanətçinin Ərizədə etdiyi seçim əsasında Əmanət üzrə faizlərin müddətin sonunda ödənilməsi nəzərdə tutulduqda - Əmanətçinin yalnız Cari hesabına;
**1.4.2.** 3 aylıq müddətə olan əmanət istisna olmaqla, digər müddətli əmanətlər üzrə Əmanətçinin Ərizədə etdiyi seçim əsasında faizlərin hər ay ödənilməsi nəzərdə tutulduqda – Əmanətçinin seçimindən asılı olaraq onun kart hesabına (əmək haqqı kartına aid olan kart hesabı istisna olmaqla) və ya Cari hesabına.

**1.5. Müqaviləyə vaxtından əvvəl xitam verildiyi halda illik faiz dərəcə(si)(ləri).** Əmanət vaxtından əvvəl tələb edildikdə, yaxud Əmanət Əmanətçinin sərəncamı olmadan hər hansı əsasla əmanət hesabından akseptsiz qaydada tam və ya qismən silindikdə, Əmanət üzrə faizlər hesablanmır və ödənilmir. Bu zaman Əmanət üzrə əvvəl artıq hesablanmış və ödənilmiş faizlərin məbləği Bank tərəfindən Əmanətin məbləğindən tutulur, bu mümkün olmadıqda isə artıq ödənilmiş faizlərin məbləği "ASC "Xalq" Bankında Fiziki şəxslər tərəfindən əmanətlərin yerləşdirilməsinə dair Şərtlər"in (bundan sonra – Şərtlər) 3.17-ci bəndi ilə müəyyən olunan müddətdə Əmanətçi tərəfindən Banka qaytarılır.

**1.6. Prolonqasiya:** Mümkündür.

## 2. PROQRESS ƏMANƏTİ BANK MƏHSULU ÜZRƏ XÜSUSİ ŞƏRTLƏR

**2.1. Əmanətin müddəti/valyutası.**

| 12 ay | 24 ay |
|---|---|
| AZN/USD/EUR | AZN |

**2.2. Əmanət üzrə illik faiz dərəcəsi.**

| **Valyuta** | **Faizlərin ödənilməsi dövriliyi** | **12 ay** | **24 ay** |
|---|---|---|---|
| **AZN** | Aylıq | 8.50% | 9.00% |
| | Müddətin sonunda | 9.50% | 10.00% |
| **USD** | Aylıq | 1.75% | - |
| | Müddətin sonunda | 2.25% | - |
| **EUR** | Aylıq | 0.75% | - |
| | Müddətin sonunda | 1.25% | - |

**2.3. Əmanət üzrə ilkin haqqın məbləği.**

- Minimal məbləğ: 100 AZN/USD/EUR
- Maksimal məbləğ: məhdudiyyətsiz

**2.4. Əmanət üzrə faizlərin ödənilməsi qaydası.** Faizlər Əmanətçinin Ərizədə etdiyi seçim əsasında onun aşağıdakı hesablarından birinə köçürülür:

- Əmanət üzrə faizlərin müddətin sonunda ödənilməsi nəzərdə tutulduqda - Əmanətçinin Cari hesabına;
- Faizlərin hər ay ödənilməsi nəzərdə tutulduqda – Əmanətçinin seçimindən asılı olaraq onun kart hesabına (əmək haqqı kartına aid olan kart hesabı istisna olmaqla) və ya Cari hesabına.

**2.5. Əmanət məbləğinin artırılması.** Əmanət məbləğinin əlavə haqların qoyulması yolu ilə artırılmasına əmanət müddətinin bitməsinə 6 (altı) ay qalanadək yol verilir.

- Əlavə haqqın minimal məbləği: məhdudiyyət yoxdur.
- Əlavə haqqın maksimal məbləği: əmanətin valyutasından asılı olaraq hər əlavə haqqın məbləği 100 000 AZN/USD/EUR-dan artıq olmamalıdır.

**2.6. Müqaviləyə vaxtından əvvəl xitam verildiyi halda illik faiz dərəcə(si)(ləri).** Əmanət vaxtından əvvəl tələb edildikdə, yaxud Əmanət Əmanətçinin sərəncamı olmadan hər hansı əsasla əmanət hesabından akseptsiz qaydada tam və ya qismən silindikdə, Əmanət üzrə faizlər hesablanmır və ödənilmir. Bu zaman Əmanət üzrə əvvəl artıq hesablanmış və ödənilmiş faizlərin məbləği Bank tərəfindən Əmanətin məbləğindən tutulur, bu mümkün olmadıqda isə artıq ödənilmiş faizlərin məbləği Şərtlərin 3.17-ci bəndi ilə müəyyən olunan müddətdə Əmanətçi tərəfindən Banka qaytarılır.

**2.7. Prolonqasiya:** Mümkündür.

## 3. VİP RANTYE ƏMANƏTİ BANK MƏHSULU ÜZRƏ XÜSUSİ ŞƏRTLƏR

**3.1. Əmanətin müddəti/valyutası.**

| 12 ay | 24 ay |
|---|---|
| AZN/USD/EUR | AZN |

**3.2. Əmanət üzrə illik faiz dərəcəsi.**

| Valyuta | Faizlərin ödənilməsi dövriliyi | 12 ay | 24 ay |
|---|---|---|---|
| **AZN** | Aylıq | 8.50% | 9.00% |
| **USD** | Aylıq | 1.75% | - |
| **EUR** | Aylıq | 0.75% | - |

**3.3. Əmanət üzrə ilkin haqqın məbləği.**

- Minimal məbləğ: 100 000 AZN/USD/EUR
- Maksimal məbləğ: məhdudiyyətsiz

**3.4. Əmanət üzrə faizlərin ödənilməsi qaydası.** Faizlər Əmanətçinin Ərizədə etdiyi seçim əsasında hər ay onun Cari və ya kart hesabına (əmək haqqı kartı istisna olmaqla) köçürülür.

**3.5. Əmanət məbləğinin artırılması.**

- Əlavə haqqın minimal məbləği: məhdudiyyət yoxdur.
- Əlavə haqqın maksimal məbləği: ilkin haqqın məbləğinə nisbətdə və əmanətin valyutasından asılı olaraq birdəfəlik və ya hissə-hissə olmaqla maksimum 100 000 AZN/USD/EUR məbləğində.

**3.6. Əmanət məbləğinin qismən azaldılması.** Əmanət məbləği ilkin haqqın məbləğinə nisbətdə və əmanətin valyutasından asılı olaraq birdəfəlik və ya hissə-hissə olmaqla maksimum 50 000 AZN/USD/EUR məbləğində azaldıla bilər.

**3.7. Müqaviləyə vaxtından əvvəl xitam verildiyi halda illik faiz dərəcə(si)(ləri).** Əmanət vaxtından əvvəl tələb edildikdə, yaxud Əmanət Əmanətçinin sərəncamı olmadan hər hansı əsasla əmanət hesabından akseptsiz qaydada tam və ya qismən silindikdə, Əmanət üzrə faizlər hesablanmır və ödənilmir. Bu zaman Əmanət üzrə əvvəl artıq hesablanmış və ödənilmiş faizlərin məbləği Bank tərəfindən Əmanətin məbləğindən tutulur, bu mümkün olmadıqda isə artıq ödənilmiş faizlərin məbləği Şərtlərin 3.17-ci bəndi ilə müəyyən olunan müddətdə Əmanətçi tərəfindən Banka qaytarılır.

**3.8. Prolonqasiya:** Mümkündür.

## 4. UŞAQ YIĞIM ƏMANƏTİ BANK MƏHSULU ÜZRƏ XÜSUSİ ŞƏRTLƏR

**4.1. Əmanətin müddəti/valyutası.**

| |
|---|
| 12 ay |
| AZN/USD/EUR |

**4.2. Əmanət üzrə illik faiz dərəcəsi.**

| Valyuta | Faizlərin ödənilməsi dövriliyi | 12 ay |
|---|---|---|
| **AZN** | Müddətin sonunda | 10.25% |
| **USD** | Müddətin sonunda | 2.25% |
| **EUR** | Müddətin sonunda | 1.25% |

**4.3. Əmanət üzrə ilkin haqqın məbləği.**

- Minimal məbləğ: 100 AZN/USD/EUR
- Maksimal məbləğ: məhdudiyyətsiz

**4.4. Əmanət üzrə faizlərin ödənilməsi qaydası.** Hesablanmış faizlər əmanət müddəti bitdikdən sonra əmanətin məbləği ilə birlikdə Əmanətçinin (xeyrinə əmanət yerləşdirilən şəxsin) Cari hesabına köçürülür.

**4.5. Əmanət üzrə faizlərin kapitalizasiyası.** Əmanət prolonqasiya olunduqda, hesablanmış faizlər kapitalizasiya olunaraq əmanət məbləğini artırır.

**4.6. Əmanət məbləğinin artırılması.** Əmanət üzrə əmanət məbləğinin artırılmasına məhdudiyyət qoyulmur.

**4.7. Əmanətçi hüquqlarından istifadə.**
**4.7.1.** Adına əmanət qoyulmuş şəxs 14 yaşına çatanadək əmanətçi hüquqlarını onun qanuni təmsilçilərinin hərəkətləri vasitəsilə, onlar tərəfindən bu hüquqlara əsaslanan ilk tələbin Banka verilməsi və ya belə hüquqlardan istifadə etmək niyyətinin başqa üsulla Banka bildirilməsi anından əldə edir və həyata keçirir.
**4.7.2.** 14 yaşı tamam olmuş adına əmanət qoyulmuş şəxs əmanətçi hüquqlarını onun qanuni təmsilçilərinin yazılı razılığı əsasında öz hərəkətləri ilə Xüsusi şərtlərin 4.7.1-ci yarımbəndinə müvafiq olaraq müəyyən edilən andan əldə edə və həyata keçirə bilər.

**4.8. Əmanətin götürülməsi (vaxtında və vaxtından əvvəl).** Adına əmanət qoyulmuş 14 yaşı tamam olmamış yetkinlik yaşına çatmayan şəxsin adından qanuni təmsilçiləri tərəfindən Əmanət məbləğinin azalmasına səbəb olan hər bir əməliyyat üçün, habelə əmanətin tam geri götürülməsinə qəyyumluq və himayəçilik orqanının icazəsi tələb edilir.

**4.9. Müqaviləyə vaxtından əvvəl xitam verildiyi halda illik faiz dərəcə(si)(ləri).** Əmanət vaxtından əvvəl tələb edildikdə, yaxud Əmanət Əmanətçinin sərəncamı olmadan hər hansı əsasla əmanət hesabından akseptsiz qaydada tam və ya qismən silindikdə, Əmanət üzrə faizlər hesablanmır və ödənilmir. Bu zaman Əmanət üzrə əvvəl artıq hesablanmış və ödənilmiş

faizlərin məbləği Bank tərəfindən Əmanətin məbləğindən tutulur, bu mümkün olmadıqda isə artıq ödənilmiş faizlərin məbləği Şərtlərin 3.17-ci bəndi ilə müəyyən olunan müddətdə Əmanətçi tərəfindən Banka qaytarılır.

**4.10. Əmanətdəki pul vəsaitlərinin girovu ilə kreditləşmə.** Uşaq yığım əmanəti növü üzrə Bankda əmanətləri yerləşdirmiş Əmanətçilərə Şərtlərin 5-ci maddəsinin müddəaları şamil edilmir.

**4.11. Prolonqasiya.** Müqavilənin qüvvədə olduğu müddət ərzində xeyrinə əmanət yerləşdirilmiş şəxsin 18 (on səkkiz) yaşı tamam olarsa, Müqavilə əmanət müddətinin sonunadək qüvvədə qalır, lakin Müqavilənin növbəti müddətə prolonqasiyasına icazə verilmir.

## 5. SABİT DİGİTAL ƏMANƏT BANK MƏHSULU ÜZRƏ XÜSUSİ ŞƏRTLƏR

**5.1. Əmanətçi:** Mobil tətbiqin istifadəçisi olan Azərbaycan Respublikasının vətəndaşları.

Bu məhsul üzrə Əmanətçi qismində yalnız Bankda cari hesabı mövcud olan şəxs çıxış edə bilər.

**5.2. Əmanətin müddəti/valyutası.**

| 3 ay | 6 ay | 9 ay | 12 ay | 18 ay | 24 ay |
|---|---|---|---|---|---|
| AZN | AZN/USD | AZN/USD | AZN/USD | AZN/USD | AZN/USD |

**5.3. Əmanət üzrə illik faiz dərəcəsi.**

| **Valyuta** | **Faizlərin ödənilməsi dövriliyi** | **3 ay** | **6 ay** | **9 ay** | **12 ay** | **18 ay** | **24 ay** |
|---|---|---|---|---|---|---|---|
| **AZN** | **Aylıq** | 7% | 8% | 9% | 10% | 10% | 10% |
| | **Müddətin sonunda** | 8% | 9% | 9.5% | 10.5% | 10.5% | 10.5% |
| **USD** | **Aylıq** | - | 1% | 1.5% | 2% | 2% | 2% |
| | **Müddətin sonunda** | - | 1.5% | 2% | 2.5% | 2.5% | 2.5% |

**5.4. Bir Əmanətçi ilə bağlanması nəzərdə tutulan müqavilələrin (bir Əmanətçi tərəfindən yerləşdirilməsi nəzərdə tutulan əmanətlərin) maksimal sayı:** 10 ədəd.

**5.5. Əmanət məbləğinin miqdarına dair tələblər.**

- Bir müqavilə üzrə minimal məbləğ: 100 AZN/USD
- Bu məhsul çərçivəsində bir Əmanətçi ilə bağlanan bütün müqavilələr üzrə ümumi maksimal məbləğ: 500 000 AZN/USD

**5.6. Əmanət üzrə faizlərin ödənilməsi qaydası.** Faizlər Əmanətçinin Mobil tətbiqdə etdiyi seçim əsasında hər ay və ya müddətin sonunda onun Cari hesabına köçürülür.

**5.7. Prolonqasiya barədə şərtin və Müqavilənin digər şərtlərinin dəyişdirilməsi.** Əmanətin prolonqasiyası yalnız Əmanətin yerləşdirilməsi zamanı Əmanətçi tərəfindən Ərizədə

Əmanətin prolonqasiyası ilə bağlı şərt seçildiyi halda mümkündür. Əmanətçi tərəfindən Əmanətin prolonqasiyası barədə seçdiyi şərtin və Ərizədə seçim etdiyi Müqavilənin digər şərtlərinin sonradan dəyişdirilməsi nəzərdə tutulmur.

**5.8. Əmanətin idarə olunması.** Əmanətin idarə olunması, bir qayda olaraq, Mobil tətbiq vasitəsilə həyata keçirilir. Zəruri hallarda (Əmanətçinin mobil cihazı işləmədikdə, həmin cihazda və ya Mobil tətbiqdə texniki nasazlıqlar olduqda, Əmanətçinin internetə çıxışı olmadıqda və s. bu kimi digər hallarda) Əmanətçi Müqavilənin ləğv edilməsi haqqında yazılı ərizəni (Şərtlərin 4 №-li Əlavəsində nəzərdə tutulmuş forma üzrə) kağız daşıyıcıda öz əl imzası ilə imzalamaqla Bankın filiallarından birinə təqdim edə bilər.

**5.9. Müqaviləyə vaxtından əvvəl xitam verildiyi halda illik faiz dərəcə(si)(ləri).** Əmanət vaxtından əvvəl tələb edildikdə, yaxud Əmanət Əmanətçinin sərəncamı olmadan hər hansı əsasla əmanət hesabından akseptsiz qaydada tam və ya qismən silindikdə, Əmanət üzrə faizlər hesablanmır və ödənilmir. Bu zaman Əmanət üzrə əvvəl artıq hesablanmış və ödənilmiş faizlərin məbləği Bank tərəfindən Əmanətin məbləğindən tutulur, bu mümkün olmadıqda isə artıq ödənilmiş faizlərin məbləği Şərtlərin 3.17-ci bəndi ilə müəyyən olunan müddətdə Əmanətçi tərəfindən Banka qaytarılır.

## 6. ARTIRILA BİLƏN DİGİTAL ƏMANƏT BANK MƏHSULU ÜZRƏ XÜSUSİ ŞƏRTLƏR

**6.1. Əmanətçi:** Mobil tətbiqin istifadəçisi olan Azərbaycan Respublikasının vətəndaşları.

Bu məhsul üzrə Əmanətçi qismində yalnız Bankda cari hesabı mövcud olan şəxs çıxış edə bilər.

**6.2. Əmanətin müddəti/valyutası.**

| 3 ay | 6 ay | 9 ay | 12 ay | 18 ay | 24 ay |
|---|---|---|---|---|---|
| AZN | AZN/USD | AZN/USD | AZN/USD | AZN/USD | AZN/USD |

**6.3. Əmanət üzrə illik faiz dərəcəsi.**

| Valyuta | Faizlərin ödənilməsi dövriliyi | 3 ay | 6 ay | 9 ay | 12 ay | 18 ay | 24 ay |
|---|---|---|---|---|---|---|---|
| AZN | Aylıq | 6% | 7% | 8% | 9% | 9% | 9% |
| | Müddətin sonunda | 7% | 8% | 9% | 10% | 10% | 10% |
| USD | Aylıq | - | 0.5% | 1% | 1.5% | 1.5% | 1.5% |
| | Müddətin sonunda | - | 1% | 1.5% | 2% | 2% | 2% |

**6.4. Bir Əmanətçi ilə bağlanması nəzərdə tutulan müqavilələrin (bir Əmanətçi tərəfindən yerləşdirilməsi nəzərdə tutulan əmanətlərin) maksimal sayı:** 10 ədəd.

**6.5. Əmanət üzrə ilkin haqqın məbləği.**

- Bir müqavilə üzrə minimal məbləğ: 100 AZN/USD

- Bu məhsul çərçivəsində bir Əmanətçi ilə bağlanan bütün müqavilələr üzrə ümumi maksimal məbləğ: 500 000 AZN/USD

**6.6. Əmanət məbləğinin artırılması.**
**6.6.1.** Əmanət məbləğinin əlavə haqlar hesabına artırılması Xüsusi şərtlərin 6.9-cu bəndində qeyd olunan qaydada Əmanətçinin Cari hesabından, Bankda Əmanətin valyutası ilə eyni valyutada olan hər-hansı digər cari hesabından və ya valyutasından asılı olmayaraq istənilən kart hesabından vəsaitlərin aşağıdakı müddətlərdə köçürülməsi yolu ilə mümkündür:

- 3-12 aylıq əmanətlər üzrə Əmanət müddətinin yarısının bitməsinə qədər olan dövrdə;
- 18 və 24 aylıq əmanətlər üzrə Əmanət müddətinin bitməsinə 180 gün qalanadək.

**6.6.2.** Bu Xüsusi şərtlərin 6.5-ci bəndinin ikinci abzasında müəyyən edilmiş ümumi limiti keçməmək şərtilə Əmanət üzrə əlavə haqqların minimal və maksimal məbləğinə məhdudiyyət qoyulmur.

**6.7. Əmanət üzrə faizlərin ödənilməsi qaydası.** Faizlər Əmanətçinin Mobil tətbiqdə etdiyi seçim əsasında hər ay və ya müddətin sonunda onun Cari hesabına köçürülür.

**6.8. Prolonqasiya barədə şərtin və Müqavilənin digər şərtlərinin dəyişdirilməsi.** Əmanətin prolonqasiyası yalnız Əmanətin yerləşdirilməsi zamanı Əmanətçi tərəfindən Ərizədə Əmanətin prolonqasiyası ilə bağlı şərt seçildiyi halda mümkündür. Əmanətçi tərəfindən Əmanətin prolonqasiyası barədə seçdiyi şərtin və Ərizədə seçim etdiyi Müqavilənin digər şərtlərinin sonradan dəyişdirilməsi nəzərdə tutulmur.

**6.9. Əmanətin idarə olunması.** Əmanətin idarə olunması, bir qayda olaraq, Mobil tətbiq vasitəsilə həyata keçirilir. Zəruri hallarda (Əmanətçinin mobil cihazı işləmədikdə, həmin cihazda və ya Mobil tətbiqdə texniki nasazlıqlar olduqda, Əmanətçinin internetə çıxışı olmadıqda və s. bu kimi digər hallarda) Əmanətçi:
**6.9.1.** Əmanət məbləğinin artırılması üçün Bankın filiallarından birinə müraciət edə bilər.
**6.9.2.** Müqavilənin ləğv edilməsi haqqında yazılı ərizəni (Şərtlərin 4 №-li Əlavəsində nəzərdə tutulmuş forma üzrə) kağız daşıyıcıda öz əl imzası ilə imzalamaqla Bankın filiallarından birinə təqdim edə bilər.

**6.10. Müqaviləyə vaxtından əvvəl xitam verildiyi halda illik faiz dərəcə(si)(ləri).** Əmanət vaxtından əvvəl tələb edildikdə, yaxud Əmanət Əmanətçinin sərəncamı olmadan hər hansı əsasla əmanət hesabından akseptsiz qaydada tam və ya qismən silindikdə, Əmanət üzrə faizlər hesablanmır və ödənilmir. Bu zaman Əmanət üzrə əvvəl artıq hesablanmış və ödənilmiş faizlərin məbləği Bank tərəfindən Əmanətin məbləğindən tutulur, bu mümkün olmadıqda isə artıq ödənilmiş faizlərin məbləği Şərtlərin 3.17-ci bəndi ilə müəyyən olunan müddətdə Əmanətçi tərəfindən Banka qaytarılır.